# Bizim ailəmiz türk dünyasıdır

(Əvvəli 5-ci səhifədə).

Şərq-Qərb nəqliyyat dəhlizi təşəbbüsünün fəal üzvü olan Azərbaycan Çin hökumətinin "Bir kəmər, bir yol" təşəbbüsünü daim dəstəkləyir, qonşu ölkələrin qlobal layihələrə qoşulmaq istəklərini yüksək dəyərləndirir. Çünki Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin üzvü olan yeganə ölkədir ki, infrastrukturun yenilənməsi ilə Xəzərin sahilində 25 milyon tona qədər yük daşımaq gücündə olan ən böyük dəniz limanı respublikamızın ərazisindədir. Başqa sözlə deyilsə, Avropa və Asiya arasında əlaqə yaradan Bakı-Tbilisi-Qars ərazilərini yaxınlaşdırmaq istəyənlər üçün ən səmərəli yoldur. Asiya və Avropanı birləşdirən yeni marşrutların keçdiyi əsas ölkələr arasında Azərbaycanın ön sıralarda yer alması təsadüfi deyil. Dünyanın ən böyük iqtisadiyyatına malik ölkələrdən biri olan, ixrac həcminə görə beynəlxalq reytinq cədvəlində ilk pillədə qərarlaşan Çinin Avropa, eləcə də Qara dəniz, Aralıq dənizi hövzəsində yerləşən ölkələrlə nəqliyyat xətləri vasitəsilə birləşməsində Azərbaycan getdikcə daha vacib rol oynayır. Burada o da xüsusi qeyd edilməlidir ki, Azərbaycanın malik olduğu nəqliyyat infrastrukturu, o cümlədən dəmir yolları Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün vacib hissəsidir. Hadisələrin inkişafı Zəngəzur dəhlizinin də həyati əhəmiyyət daşıdığını göstərir. Zəngəzur dəhlizi regionda yeni nəqliyyat imkanları yaradacaq, Bütün bunlar Azərbaycanın Avropa ilə Asiya arasında ticari-iqtisadi əlaqələrdə nə dərəcədə vacib rol oynadığını əyani şəkildə təcəssüm etdirir.

Bugünümüzün əsas hədəflərindən biri qeyri-neft sektorunun inkişafıdır. Nəqliyyat sektorumuz qarşıda dayanan bu kimi vəzifələrin icrasına geniş imkanlar yaradır. Cənab İlham Əliyevin qeyd etdiyi kimi, nəqliyyat sektoruna qoyulan sərmayələr 1-2 ilə, hətta 5-10 ilə geri qayıdan sərmayələr deyil. Bu, uzunmüddətli sərmayədir. Bu sərmayələr insanların rahatlığına və ölkənin uzunmüddətli dayanıqlı inkişafına nail olmaq üçün qoyulub. Bu gün iqtisadi əməkdaşlığa diqqət yetirdikdə enerji və nəqliyyat təhlükəsizliyinin təmin edilməsinin prioritetliyi fonunda atılan addımlar xüsusi diqqət çəkir. Tranzit imkanlarının mövcudluğu əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə stimul verir.

Qısa təhlil ölkəmizin yerləşdiyi coğrafi mühitin bu sahədə əlaqələrin inkişafına öz müsbət təsirini göstərdiyini açıqlayır. Əsas olan budur ki, Azərbaycan dövlətinin uğurlu siyasəti bu imkanlardan səmərəli istifadəni şərtləndirir. Təbii ki, eyni fikirləri dost Türkiyə ilə bağlı da qeyd edə bilərik. Cənab İlham Əliyev sözügedən səfər çərçivəsində türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla mətbuata birgə bəyanatlarında bildirdi ki, hər dəfə Türkiyədə olarkən qardaş ölkədə gedən genişmiqyaslı inkişaf prosesini izləyirəm. Buna çox sevinirəm və bir daha görürəm ki, əziz Qardaşımın səyləri nəticəsində qardaş ölkə yeni zirvələri fəth edir: «Türkiyə bu gün dünya çapında söz sahibidir. Təkcə bölgəmizdə deyil, dünya çapında bir çox məsələlər Türkiyənin mövqeyindən asılıdır. Türkiyə bölgəmizdə əmin-amanlığın, sülhün və işbirliyinin qarantıdır. Türkiyənin güclü sənaye potensialı, güclü iqtisadiyyatı, o cümlədən hərbi gücü Türk dünyasına mənsub olan hər bir insanı sevindirir. Təbii ki, Azərbaycan Sizin uğurlarınıza öz uğurları kimi sevinir.»

Səfər çərçivəsində prezidentlərin keçirdikləri görüşlərdə, mətbuata birgə bəyanatlarda ümumilikdə türk dünyasının daha da möhkəmləndirilməsi məsələsi diqqətə çatdırılaraq türkdilli dövlətlərin hər birinin bu hədəfə öz töhfələrini vermək imkanları vurğulandı. Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının bizim bir ailəmiz olduğunu və Milli Məclisdə keçirilən andiçmə mərasimində çıxışı zamanı da bu faktı vurğuladığını söylədi. Böyük coğrafiyaya, təbii qaynaqlara, insani resurslara, geniş potensiala malik Türk Dövlətləri Təşkilatının birgə səylərlə daha da inkişaf etdirilməsinin vacibliyi bildirildi.

**Azad MƏMMƏDOV,**
**"Qəbələ"**

# Mediasiya haqqında Azərbaycan Respublikasının Qanunu

Qəbələ Mediasiya Təşkilatı tərəfindən Qəbələ Regional "ASAN xidmət" mərkəzində "Mediasiya haqqında Azərbaycan Respublikasının Qanunu"nun təbliği ilə bağlı tədbir keçirilmişdir. Tədbirdə çıxış edən Qəbələ Mediasiya Təşkilatının rəhbəri Ədalət Əliyev ailə, əmək, mülki və digər mübahisələrin həlli ilə bağlı daxil olmuş müraciətlərə baxılmasında bu qanunun əhəmiyyəti, faydası haqqında iştirakçılara məlumat verərək, ailə münasibətlərinin cəmiyyətə təsiri, problemləri yaradan səbəblərin aradan qaldırılması yolları haqqında məlumat vermişdir. Tədbir diskussiya şəklində davam etmişdir.

# Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi

Rayon icra hakimiyyəti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın ümumrayon təhsil müəssisələrinin direktor və psixoloqları ilə geniş tərkibdə iclası keçirilib. Qəbələ şəhər 5 saylı tam orta məktəbdə keçirilən tədbiri giriş sözü ilə açan Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın tərkib hissəsini təqdim etmiş, komissiya tərəfindən həyata keçirilmiş işlərdən və qarşıda duran vəzifələrdən danışmışdır. Komissiyanın məsul katibi vəzifəsinə yeni təyin olunan Pərvin Məmmədov yetkinlik yaşına çatmayanlara tərbiyəvi təsir göstərmək, onların hüquqlarını və qanuni mənafelərini qorumaq, davranışına nəzarət etmək, qanuna zidd əməllərinin qarşısını almaq üçün ümumtəhsil müəssisələri və valideynlər komissiya üzvləri ilə sıx əlaqə saxlamalı, işlərini birlikdə qurmalı olduqlarını diqqətə çatdırmışdır.

# Dumanların çağrışına yar olma...

**Yaşanan ömür**

Həyat çox qəribə; yaşayırsan: hər günün kiçik bir arx (kəndarası çay qolunun kiçik bir hissəsi) suyu tək axır, gedir. Bu arxda da köhnəlmiş ot-yarpaqdan, çör-çöpdən, daşqumdan çilləkənlər olur. Çətinliklə də olsa bir yer tapıb su öz axarına davam edir. Bu da insan ömrünə bənzər. Həyat yolu çox hamar və çilləkənsiz, eniş-yoxuşsuz olan insanlar həyatı məna dolu yaşamazlar və həyatı öz dar düşüncələri ilə qiymətləndirərlər. Bəzən isə çətinliklərlə rastlaşsalar belə onun "heyfini" həyatda yaşam tərzi ilə çıxararlar. Bax, bu da maraqlı və mənalı bir həyat sanılmaz. İnsan əgər yaşadığı həyatı tək özü üçün yaşamırsa, onun varlığı illərlə, əsrlərlə nəsilbənəsil xatırlanacaq və kimlərə isə örnək olacaqsa, o ömür insanı yaşadacaq daima. - İşin vətən övladının müqəddəs vəzifəsinin xalqına, vətəninə vətəndaş xidmətində, həm də hərbçi kimi xidmətdə görürdü. Elə bu arzunun işığı ilə o öz yolunu seçdi...

**Natiq kimdir?**

Natiq Əjdər oğlu İsmayılov 1980-ci il martın 5-də Qəbələ rayonunun Bunud kəndində anadan olmuşdur. VIII sinfə kimi Bunud kənd orta məktəbində, sonra isə Cəmşid Naxçıvanski adına hərbi liseydə təhsil almışdır. Təhsilini Heydər Əliyev adına Hərbi Akademiyada davam etdirmişdir. Xidmət etdiyi dövrdə həmişə həyata baxışı - çalışqanlığı, vətənə sevgisi,əsgərlərə qayğısı, hərb işinin





dən, kimliyindən, vəzifəsindən asılı olmayaraq; yalnız əsil insan kimi, əməli ilə!

Həyatda cismən var olmayan birini hər qapı döyüləndə, hər xoş və çətin anında belə gözləyirsənsə, xatırlayırsansa, demək o insan da daima sənin üçün yaşayır. Vətən uğrunda canını fəda etmiş şəhidlər kimi...

**Arzunun yolları**

Halal zəhmətin bəhrəsi gec-tez özünü büruzə verir. İnsanın dünyaya göz açdığı ailə, valideynlərinin tərbiyəsi, yaşayış tərzi onu körpə yaşlarından formalaşdırmağa başlayır, təhsil ocağı isə onun xarakterini formalaşdırmağa çalışır. Bax, beləcə insan ətraf mühitə alışa-alışa həyata hazırlanır. bu hazırlıq ilkin mərhələdə diqqət mərkəzində olarsa, insan yaş üstünə yaş gəldikcə kamilləşir və həyat üçün lazımi bir varlığa çevrilir.

Natiq İsmayılov da məhz belə bir ömür yaşamış insanlardandır. Hələ körpə yaşlarından kişi xislətinə daha maraqlı idi. Oyunlarında, istək və arzularında, xarakterində öz fərqliliyi ilə həmyaşıdlarından seçilərdi. Hərbçi, Vətənin müsəlləh əsgəri olmaq uşaqlıq arzusu idi. Elə bu arzuya yiyələnərək əsir torpaqlarımızı azad etmək, qaçqın, köçkün məfhumlarını xalqının evindən, ocağından qovulanların adından təmizləmək istəyirdi. Əsil bütün çalarları ilə öyrənməsi, bir sözlə, əsil hərbçi kimi yetişməsi ona daha çox hörmət qazandırmışdır. O, leytenant rütbəsi ilə işə başlamış, Naxçıvanda, Qusarda və Murovdağda yerləşən "N" saylı hərbi hissədə xidmətini davam etdirmişdir.

Natiq 1 - 6 aprel 2016-cı ildə baş verən Aprel döyüşlərində vuruşmuşdur. 2020-ci ildə isə ehtiyata buraxılmışdır.

Azərbaycan Ordusunun mayoru olan Natiq İsmayılov 2020-ci ilin 27 sentyabrında Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan müharibə zamanı istefada olmasına rəğmən könüllü olaraq yenidən hərb sahəsinə qayıdaraq döyüşlərə qoşulmuşdur.

Sanki şair Musa Cəlil öz şeirini məhz bu qəhrəmana həsr etmişdir:

***Ölümün qolları güclü olsa da,***
***Vətən məhəbbəti güclüdür ondan.***
***Bax, bu məhəbbətdir aparan bizi,***
***Ağır döyüşlərə hər vaxt, hər zaman.***

Oktyabrın 17-də Füzult rayonu istiqamətində gedən döyüşlər zamanı şəhadətə qovuşmuşdur. O, doğulduğu məkanda, Qəbələnin Bunud kəndində dəfn olunmuşdur. Ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları, 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif olunmuşdur.

Onun ailəsi, övladları ilə görüşərkən evmuzeyində onun hərbi işdə çalışdığı illərdə aldığı Fəxri fərmanlar, sertifikatlar, təşəkkürnamələr, medallar və xatirə hədiyyələri ilə də tanış olduq. Onun hərbi fəaliyyəti və igid bir döyüşçü, zəngin mənəviyyatlı biri kimi qəzet səhifəsində onu əks etdirmək, kiçik bir yazıyla çıxış etmək mümkün deyil. İşlədiyi və yaşadığı hər gün bir dastan kimi...

Ailənin 7 övladından ən kiçiyi olan Natiq həm Tamara ananın, Əjdər atanın (onlar haqq dünyasındadırlar), bacı-qardaşlarının, ailənin ən çox sevdiyi biri idi. Humanistliyi, mənəvi zənginliyi onu hər kəsə sevdirirdi. Övlad kimi övlad, ata kimi ata, qardaş kimi qardaş, ər kimi ər, hərbçi kimi əsil hərbçi, dost kimi sədaqətli bir dost idi Natiq!

**Ömür var ki...**

Ömür var ki, gözlərdə, sözlərdə, əməllərdə yaşayır. Cismən olmasa da, tarix boyu yaşanan ömürlər var, məhz Natiq ömrü kimi... Anası Tamara xanım onun acısına dözə bilmədi, tez-tez övladının daş şəkli ilə danışan ana artıq onun ruhuna qovuşmuşdur.

4 övladı Natiqin yadigarıdır, ömür-gün yoldaşı Nigar xanım o övladlarını məhz Natiqin adına, əməlinə, insanlığına layiq tərbiyə edir. Məhz Nigar qeyrətli, Nigar kimi qoçaq bir ana! Övladlarının və ömür-gün yoldaşının baxışlarında, əməllərində, hətta nəfəslərində belə yaşayır Natiq. Anasının ad günündə hədiyyə etdiyi ətirin qoxusunda, onun xatirə hədiyyələrindəki əl izlərində yaşayır Natiq! Övladları: 13 yaşlı Ömər artıq evin "ata əvəzi", 9 yaşlı Gülər ailənin baş tacı, ekiz qardaşlar - 7 yaşlı Davud və Behbud isə ailənin sevinc topalusu. Hər birinin baxışında görünürsən - arzuları yarım qalan igid eloğlum, tarix yazan qəhrəmanımız! Övladlarını qəhrəman ataların adına layiq böyüdən, təhsilinə, tərbiyəsinə həmişə diqqət edən şəhid xanımı Nigar qızımıza dözüm və səbr arzulayaraq, şəhidimizə Allahdan rəhmət diləyirik.

Məmməd Araz necə gözəl deyib:

***Baxışında üfüqlərin baxarı,***
***Gülüşündə çaylarının axarı,***
***Əllərində işığının açarı...***

Bax, Natiq əməlinin işığıyla ailəsinə sağlam bir həyat arzulayırıq!

Məkanın cənnət olsun Natiq!

**BİBİXANIM.**